**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№300/5** **18 may 2018-ci il**

**Yeni fəaliyyətə başlayan auditor təşkilatlarına və sərbəst auditorlara əməli köməklik göstərilməsi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2018-ci il üzrə iş planının 1.10-cu "Yeni fəaliyyətə başlayan auditor təşkilatlarına və sərbəst auditorlara əməli köməklik göstərilməsi" bəndinin və Palata sədrinin 2018-ci il 9 fevral tarixli 5 nömrəli "Auditorlar Palatasının üzvü olan auditor təşkilatları və sərbəst auditorlara əməli köməklik göstərilməsi barədə" əmrinin icrası ilə əlaqədar Auditin təşkili və kadr hazırlığı idarəsi (S.Gülməmmədov) tərəfindən hazırlanmış hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Yeni fəaliyyətə başlayan auditor təşkilatlarına və sərbəst auditorlara əməli köməklik göstərilməsi" barədə hazırlanmış hesabat nəzərə alınsın (əlavə olunur).
2. Auditin təşkili və kadr hazırlığı idarəsinə (S.Gülməmmədov) tapşırılsın ki, yeni fəaliyyətə başlayan auditor təşkilatlarına və sərbəst auditorlara auditor fəaliyyətini həyata keçirmək üçün icazə verilərkən onlara Palata tərəfindən auditin tənzimlənməsi sahəsində qəbul edilmiş normativ sənədlər toplusunun təqdim edilməsi, buna dair reyestrin aparılması və imza edilməsi təmin edilsin.
3. Auditin təşkili və kadr hazırlığı idarəsinə (S.Gülməmmədov) tapşırılsın ki, yeni fəaliyyətə başlayan auditor təşkilatlarına və sərbəst auditorlara əməli köməklik göstərilməsinin zəruriliyini nəzərə alaraq bundan imtina edən auditor təşkilatları və sərbəst auditorlara bir həftə ərzində xəbərdarlıq məktubunun göndərilməsi təmin edilsin.
4. Auditin təşkili və kadr hazırlığı idarəsinə (S.Gülməmmədov), sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova, Auditin keyfiyyətinə nəzarət şöbəsinə (Y.Namazəliyev), Standartlaşdırma və metodologiya üzrə komitənin sədri, "ANR AUDİT" MMC-nin direktoru N.Abbaslıya tapşırılsın ki, yeni fəaliyyətə başlayan auditor təşkilatlarına və sərbəst auditorlara hər rüb üzrə müvafiq qrafikdə qeyd edilən mövzulara dair seminarların keçirilməsi təmin edilsin (qrafik əlavə olunur).
5. Auditin təşkili və kadr hazırlığı idarəsinə (S.Gülməmmədov) tapşırılsın ki, yeni fəaliyyətə başlayan auditor təşkilatları və sərbəst auditorların Palatanın ictimai həyatında yaxından iştirak etməsi təmin edilsin.
6. Auditin təşkili və kadr hazırlığı idarəsinə (S.Gülməmmədov) və Aparatın informasiya texnologiyaları üzrə mütəxəssisi İ.Zeynallıya tapşırılsın ki, on gün müddətində bu hesabatın qısa icmalının iqtisadiyyat qəzetində dərc etdirilməsi və Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**